# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 142-ci kitabı çapdan çıxıb




**"Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və etdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir".**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 142-ci kitabında yer alan bu sözləri dövlətimizin başçısı 2024-cü ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışı zamanı söyləyib.

Çoxcildliyin 142-ci kitabında toplanmış materiallar 2024-cü ilin dekabrından 2025-ci ilin fevralınadək olan dövrü əhatə edir.

Yeni kitaba Azərbaycan Prezidentinin ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) yekdilliklə üzv seçilməsi münasibətilə Türkiyə, Misir, Pakistan və İran prezidentlərinə təşəkkür məktubları daxil edilib. Nəşrdə dövlətimizin başçısının "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olmuş ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Hava Limanında keçirilmiş vida mərasimində iştirakına dair informasiya, Azərbaycan Televiziyasına müsahibəsinin mətni, bu faciə ilə bağlı Rusiya Prezidenti Vladimir Putinlə telefon danışıqları, ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşünə dair materiallar da verilib.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətinin, habelə yerli televiziya kanallarına geniş müsahibəsinin mətnləri, 20 Yanvar - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarəti, ölkəmizdə keçirilmiş bələdiyyə seçkilərinə səsvermədə iştirakı haqqında materiallar da yer alıb.

Oxucu kitabda Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfərinin və keçirdiyi görüşlərin materialları, Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsinin mətnini ilə də tanış ola bilər.

Bu kitabda Prezident İlham Əliyevin, həmçinin yanvar ayında Azərbaycana səfərə gəlmiş Gürcüstanın Baş naziri İrakli Kobaxidze, fevral ayında ölkəmizə səfər etmiş Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə görüşləri haqqında da materiallar toplanıb.

Yeni kitaba Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində iştirakı haqqında informasiyalar da daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Azərbaycan.- 2025.- 6 aprel (№ 66).- S.3.